# Biznesi Allaha məqbul tərzdə idarə edək

DENNİS PİKOK

# Mütəxəssislər Biznesi *Allaha məqbul tərzdə idarə edək* kitabı barədə nə düşünürlər?

*"Biznesi Allaha məqbul tərzdə idarə edək" kitabı çoxillik tədqiqatların, təcrübələrin və tətbiqi idarəçiliyin məhsuludur. Bu əsər indiki reallıqlara aydınlıq gətirir, eləcə də müasir mədəniyyətin hər bir sahəsində Məsihin satınalınma fürsətini görmək imkanı verir. Biz bu dünyada ziddiyyətlər, xaos və böyük çətinliklər içində yaşayırıq. Mədəniyyətlərin, hakimiyyətlərin toqquşması baş verir; insanlar xeyri şər, şəri isə xeyir hesab edirlər. Keçmişdə sahibkar və idarəçilik təşkilatının təsisçisi olmuş, uzunmüddətli təcrübəyə malik Dennis Pikokun belə təlatümlü vaxtlarda dayaq tapmaqda bizə strateji və praktiki cəhətdən kömək etmək üçün xüsusi ənamı və ixtisaslaşması var. O, dərindüşüncəli mütəfəkkir və professordur; yalnız cari reallıqları müəyyən etmir, habelə bəzən qarşılaşdığımız aydın olmayan üfüqləri fəth etməkdə bizə kömək etməyə çalışır.*

**—Daq Stringer**
**"Somebody Cares America"nın təsisçisi və prezidenti**
**Somebody Cares International, Hyuston, Texas**

*"Biznesi Allaha məqbul tərzdə idarə edək" kitabı məsihçi ədəbiyyatında klassik əsərdir. Burada açıqlanmış prinsiplər məni həm şəxsi, həm də korporativ prioritetlərimi yenidən ifadə etməyə yönəltmişdir. Bu, kökdən dəyişən bir kitabdır.*

**—Dr. Con H. Binkli**
**Jr. Generational Group LLC, sədr və həmtəsisçi**

*Səs-küyü dayandırın! Dennis Pikok öz möhtəşəm kitabında bizim üçün məhz bunu edir: neqativ gərginliyi dəf edərək bazarın çətin məqamlarını asanlaşdırır. Bu, uğurlu işgüzar adamlar olan bizlərin mövqeyidir. Bu həm Allah, həm də biznes yolunda səylə irəliləməyimiz üçün cığırdır. "Biznesi Allaha məqbul tərzdə idarə edək" kitabı bu tutqun dünyada təmiz havadır.*

**—Pol Luis Koul**
**Christian Men's Qlobal, Şəbəkəsinin prezidenti**

*Dennis Pikokun bu kitabda bizimlə bölüşdüyü prinsipləri şirkətlərə məsləhət görərək böyük müvəffəqiyyətlə istifadə edirik. Bu prinsiplər bir çox rəhbərin həyatını dəyişib və onların şirkətlərinə böyük təsir göstərib.*

**—Stefan Ceykob**
**sədr, VİTAperspektiv AG, İsveçrə**

*Bu, bir inqilabdır! Radikaldır! "Biznesi Allaha məqbul tərzdə idarə edək" kitabını ilk dəfə oxuyanda məhz belə düşündüm. Dennis Pikok burada radikal anlayışlar təqdim edir: Allah bizim işimizin qeydinə qalır və onu müqəddəs hesab edir; Allah Öz Kəlamı və Ruhunun qüdrəti vasitəsilə bizi mədəniyyətimizə təsir göstərməyə çağırır; Allahın Onun standartları və strategiyalarından istifadə edən sosial ədalət və iqtisadi azadlığa marağı var. "Biznesi Allaha məqbul tərzdə idarə edək" kitabını mədəniyyətimizdə Allahın Padşahlığının təzahürünü və xalqların Onun standartlarına uyğun tərzdə dəyişilməsini görmək istəyən adamlar oxumalıdırlar.*

**—Timoti Heymon, fəlsəfə doktoru**
**baş icraçı, Christian International Ministries**

*Dennis Pikok Müqəddəs Kitaba əsaslanan iqtisadi nəzəriyyə və təcrübə uğrunda səhrada daim nida edənin səsidir. Bu prinsiplər imanlılar cəmiyyətinin bazarla əlaqə yaratması ehtiyacını, eləcə də Padşahlığın iqtisadi prinsiplərinin imanımızda mərkəzi yer tutmaq ehtiyacını əks etdirir.*

**—C. Ceffri Rayt , JD**
**prezidenti və baş icraçı, Urban Ministries İnc.**

*Dennis Pikok bu gün dünyada ən görkəmli məsihçi düşüncəli rəhbərlərdən biridir. Onun Allahın Padşahlığını bütövlükdə dərk etməsi sizi İsanın, həqiqətən, hamının Rəbbi olduğunu dərk etməyə sövq edəcək.*

**—Cerald R. Çester, fəlsəfə doktoru**

**Strategies@Work LLC, təsisçi**

*Həqiqəti əsaslı şəkildə açıqlayan "Biznesi Allaha məqbul tərzdə idarə edək" kitabını həyatımı dəyişmiş və formalaşdırmış nəşrlərdən biri hesab edirəm. Allahdan ilham almış bu əsərin məqsədi hər bir mömini oyadaraq onu həyatındakı missiyasına istiqamətləndirməkdir; bu həm onun şəxsi dəyişməsi, həm də nəticədə cəmiyyətin kökdən dəyişməsi üçün zəruridir.*

**—Frank Marinkoviç, MD**
**Eastside Ailə Sağlamlıq Mərkəzi, Kirkland, Vaşinqton**

*Bu kitab Dennis Pikokun iyirmi dörd il ərzində on iki əsas həqiqəti müşahidəsinin bəhrəsidir. Bu illər ərzində onun təliminin getdikcə inkişaf etməsinə diqqət yetirmişəm və bunların təsirini şəxsən görmüşəm. Məzmun dəqiqliklə təqdim edilir və əsaslandırılır; sizə aydın düşünməyə, müdrik hərəkət etməyə və Allaha xidmətinizdə təsirli həyat yaşamağa kömək edəcək. "Biznesi Allaha məqbul tərzdə idarə edək" kitabını sizə tövsiyə edirəm!*

**—Con D. Bekett**
**Bekett Şirkətlərinin sədri**
**"Loving Monday" və "Mastering Monday" kitablarının müəllifi**

*Müqəddəs Kitabda hər bir suala — o cümlədən, biznesdə necə müvəffəqiyyətli olmaq barədə suala da cavab tapmaq olar. Dennis Pikok Allahın əbədi prinsiplərini tətbiq etməklə biznesdə müvəffəqiyyətli olmağın yolunu çox aydın göstərir.*

**—Mark Nattl**
**"Həqiqət məqamı" ("Moment of Truth") kitabının müəllifi**

*Dennis Pikok, imanlılar cəmiyyətində bir çox rəhbərə ünvanlanmış peyğəmbərlik səsidir; o, dünya xalqlarına Padşahlığın təsirini sürətləndirir. Onun idarəçilik ənənəsi, iqtisadçı savadı və Protestant ilahiyyatı bu əsaslı mətndə — "Biznesi Allaha məqbul tərzdə idarə edək" adlı kitabında — öz əksini tapır. Bu kitab məsihçilərə bazarda təsirli və güclü olmağı öyrədir. Bu*

*kitab əsl səyahətdir.*

**—Con Kelli**
**John P. Kelly Ministries İnc, təsisçi**

# Biznesi Allaha məqbul tərzdə idarə edək

## Bizim üçün nümunə olan Allahın Öz vəsaitlərini idarə etməsinə aid tədqiqat

© Copyright 2025 Dennis Peacocke

*GoStrategic*
1221 Farmers Lane Suite E, Santa Rosa, CA 95405
www.gostrategic.org | info@gostrategic.org

Ayələr Müqəddəs Kitabın Azərbaycan dilinə tərcüməsindən götürülüb.

Ayələrdə tünd hərflərlə qeyd olunan sözlər müəllifin vurğuladığı sözlərdir.

Atam Fred Pikoka həsr edilir.
Tarixə olan sevgisi və dünya idarəçiliyinə olan böyük marağı onu etik iş adamına və Allaha məxsus olan Yer kürəsini sevən bir insana çevirmişdir.

# Mündəricat

Ön söz

Giriş: İqtisadi müjdəçilik: balığı onun azuqəsi ilə tutmaq

**I hissə: İdarəçilik və azad sahibkarlıq quruculuğuna aid Allahın əsas prinsipləri**

1-ci fəsil: Allah ailə biznesi qurur

2-ci fəsil: Mömin idarəçilik böyüməyə səbəb olur

3-cü fəsil: Sərvət və ailə

4-cü fəsil: Allahımız əməyi sevir

5-ci fəsil: Xidmət biznesi

**Iı hissə: Rifahlı və ədalətli cəmiyyət quruculuğu üçün tələb olunan əsaslar**

6-cı fəsil: Pul insanlarda nələri üzə çıxarır

7-ci fəsil: Risk, özünəhörmət və qurtuluş mübarizəsi

8-ci fəsil: Yoxsulluğun kökünü ortaya çıxarmaq

9-cu fəsil: Ədalət və bərabərlik eyni şey deyil

10-cu fəsil: Mömin idarəçilik sülh və məhsuldarlıq yaradır

11-ci fəsil: Sizi müvəffəqiyyətə gətirəcək əsas üçqat iplər

12-ci fəsil: Əsl radikallara çağırış

Müəllif haqqında

Biznes idarəçiliyi məktəbi (BİM)

*GoStrategic* haqqında

# Ön söz

Bu kitabın üç məqsədi var. Birincisi, Allahı idarəçiliyə, vəsaitlərin yaradılmasına, sosial ədalətə və uğurlu təşkilatın quruculuğuna aid bütün anlayış və təcrübələrin Müəllifi və Müdafiəçisi kimi tanımaqdır. İkincisi, bir çox məsihçinin Allahın bəşəriyyət üçün məqsədləri, eləcə də Allahın yer üzündəki işləri və rolu haqqında təsəvvürlərində düzəliş etməkdir. Üçüncüsü, milyonlarla imanlının bazardakı xidmətə sürətlə artan marağını, bunun Allahın gözündə düzgünlüyünü dəstəkləmək və irəlilətməkdir.

İllər ötdükcə bir çox iş adamının həm öz həyatlarında, həm də bazardakı xidmətlərində yerli imanlılar cəmiyyətinin rolunu dərk etmədiklərini görmüşəm. Öz vaizlik vəzifəsi və planları ilə məşğul olan bir çox pastor imanlılar cəmiyyəti idarəçiliyi ilə birbaşa əlaqəli olmayan digər əhəmiyyətli xidmətlərə məhəl qoymadığı halda, bazardakı xidmətlərə və cəmiyyətə Padşahlığı gətirən digər mühüm xidmətləri xüsusilə dəyərləndirən və tanıyan imanlılar cəmiyyəti rəhbərlərinin də sayı getdikcə artır. Əhdi-Cədid imanlıların təlim alması və inkişafında yerli imanlılar cəmiyyətinin vacibliyini aydın vurğulayır. Belə əqidəli pastorlara və biznes xidmətlərinə görə minnətdaram; birlikdə əməkdaşlıq edərək onlar həm imanlılar cəmiyyətində, həm də dünyada dəyişiklik yaratmağa çalışırlar.

Bu gün biz bir çox böhranlı vəziyyətlərlə üzləşirik, lakin növbəti suala cavab onların hamısından daha əhəmiyyətlidir: "Bəşəriyyət Yer kürəsinin ehtiyatlarının qeydinə necə qalmalıdır və bu sərvəti necə bölüşdürməlidir?" Əgər məsihçilik, həqiqətən, Allahın dünyaya olan müraciətnaməsidirsə, əgər Müqəddəs Kitab "İstehsalçının göstəriş kitabçası"dırsa, onda Müqəddəs Yazılar insanları narahat edən bu fundamental suala cavab verməlidir. Bizi yaradan Allah zəhmətimizi, bizdə olan pul dövriyyəsini, bizdə olan səmərəli ədalət məhkəməsini idarə edən qanunları və ümumiyyətlə, "iqtisadiyyat" adlandırdığımız elmə aid

ümumi qanunları təsis edibmi? Təsis edibsə, bunlar necə işləyirlər? Müqəddəs Kitabda həmin qanunlar barədə yazılıbmı? Bu qanunları pozan fərdlər, təşkilatlar və xalqlar üçün cəzalar nədir? İlkin axtarışımın və sonrakı təlimimin bünövrəsi məhz bu oldu. Həmin suallara cavablar bu kitabdadır.

Bildiyiniz kimi, İsa bunu çox aydın demişdi: "Xəzinəniz haradadırsa, ürəyiniz də orada olacaq."[1] Xəzinəmin nə olduğunu bilsəniz, ürəyimi də biləcəksiniz. Ürəklərə və xəzinələrə aid tədqiqat iqtisadiyyata və biznesə də aiddir. Əslində, məsihçilik insanın mahiyyətinin və onu yaradan Allahın tədqiqatıdır.

Nəhayət, dərindən düşündükcə aydın olur ki, bu kitab "müjdəçi" olmaq üçün nəzərdə tutulub. Demək istəyirəm ki, bu kitab adamlara çox praktiki və qüvvətləndirici olan Varlığı təqdim edir, halbuki bəzən insanlar Onu öz həyatdakı təcrübələrində deyil, göydə axtarırlar. "Bütün dövrlərin ən möhtəşəm şirkəti" nə və onun dahi İxtiraçısı olan Allaha xidmət edən adamlarla ünsiyyətə xoş gəlmisiniz!

[1] Matta 6:21.

# Giriş: İqtisadi müjdəçilik: balığı onun azuqəsi ilə tutmaq

*İsa dedi: "Ardımca gəlin, Mən sizi elə balıqçı edəcəyəm ki, insanları tutacaqsınız."*

—MATTA 4:19

Allah dünyanı Özü dəyişmək istəyir; kömək etmək üçün biz Məsihdə Onu tanımalı və Onu təqlid etməliyik. Dünyanı O yaratmışdır və O, dünyanı "imanlılar cəmiyyəti" adlanan adamları vasitəsilə Özü dəyişəcək. "İmanlılar cəmiyyəti" yunanca *ekklesia* sözündən əmələ gəlmişdir, onun hərfi mənası "düşünmək üçün ictimai bir yerə çağırılmış vətəndaşların yığıncağı"dır.[2] Yunan tarixi ilə tanış olanlar qədim yunan siyasətində *ekklesia*nın şəhər-dövlətlərdəki rolu barədə bilirlər. Onlar öz mədəniyyətlərində başçılar və biznes idarəçiləri olublar. İmanlılar cəmiyyəti idarəçilər ordusu olmalıdır; bu səbəbdən Müqəddəs Ruh onu təsvir etmək üçün *ekklesia* sözünü seçib. Bu, böyük həqiqətdir.

İdarəçilik həmişə rəhbərlik məsuliyyətləri ilə əlaqəli olub. Bir adam öz evində ailəsi üzərində yaxşı başçı deyilsə, Allahın *ekklesia*sını (imanlılar cəmiyyətini) necə idarə edə bilər?[3] Qaydaları, eləcə də işlərin ən təsirli və qısa icra planını tərtib etməzdən öncə sizə rəhbərlik gərəkdir. Allah rəhbərdirmi? Əlbəttə! Bəşəriyyətin və xalqların ən təsirli və kəsərli yolla irəliləməsinə dair Onun planı varmı? Bəli, bəli və bir daha bəli! Onun "Müjdə" adlanan bir planı var; Müjdənin təfsilatlı təsviri "Müqəddəs Kitab" adlanır; Onun planını icra etmək üçün yaradılan işçi qüvvə "imanlılar cəmiyyəti" adlanır; eyni zamanda hər yerdə olan İcra Başçısı isə Müqəddəs Ruh adlanır. Nə möhtəşəm əməliyyat! Əsas problem işçi qüvvəsinin içində — imanlılar arasındadır. Onlar iş layihəsini başa

---

[2] Thayer and Smith, Greek Lexicon entry for *Ekklesia,* "The NAS New Testament Greek Lexicon", 1999.

[3] 1 Timoteyə 3:4; Yaradılış 18:18.

düşmürlər, çünki diqqətlərini Allahın onlara yer üzündə tapşırdığı işə cəmləmək əvəzinə, gələcəkdəki səmavi təqaüdə cəmləyiblər.

Əsasən təşkilatınızın verdiyi əməkhaqqını və gələcək təqaüd təminatını düşünən yeni işçinizin xasiyyəti və niyyəti barədə nə fikirləşirsiniz? Özünü bu qədər düşünən bir kəsi işə götürmək istəyərdinizmi? Özümüz də diqqətimizi səmadakı təqaüdə həddən artıq cəmlədiyimizə görə də əsasən öz mənafeyini güdən adamları cəlb etməyə meyilliyik; məsihçiliyin ölgün nizamsızlıqda olması bunun nəticəsidir. Dünyadakı zirək işgüzar adamlar bizə yuxarıdan aşağı baxırlar. Məsihin təsvir etdiyi "zor işlədərək Padşahlığı ələ keçirən" adamları korporasiyalar qapıb işə götürürlər (Matta 11:12). Korporasiyalar daim belə işçilərin axtarışındadırlar.

Allah, sadəcə, bir biznes planına malik deyil; Allah Öz biznes planını gələcək dövrə aid edib; həmçinin O Öz dünyalarını yaratmazdan əvvəl hər bir addımı əvvəlcədən müəyyən edib.[4] Onun övladları Onunla bərabər əbədi çalışmalıdırlar. Allah tələsmir, çünki Onun əsas məqsədi həyatın keyfiyyətidir, eləcə də Öz biznesinin (Padşahlığının) təsirini genişləndirərkən işçiləri və əməkdaşlarının Onunla birlikdə yaşaması nəticəsində əldə etdikləri yetkinlikdir. Bu, əsas prinsipdir; şagird olan siz və məndən bunu başa düşmək, icra etmək və buna peşəkarlıqla sahib olmaq tələb olunur. Allahın biznes planı Onun şəriklərində sahibkarlıq və yetkinlik yaratmalıdır. Bu prinsip üzərində qurulmuş hər hansı bir ailə, biznes, imanlılar cəmiyyəti və ya xalq Allahdan xeyir-dua alacaq və inkişaf edəcək, çünki Allah öz bizneslərini Onun kimi idarə edən adamlara xeyir-dua verir. Lakin biz irəli qaçmışıq; indi isə diqqətimizi Allahın mükəmməl biznes planında cəmləməliyik.

## ATAMIZIN BİZNESİ

Müqəddəs Yazılar bizə deyir ki, İsanın uşaq yaşlarında himayəçiləri Məryəm və Yusif Onu itirərkən həyəcan içində idilər; İsa buna heyrətlənmişdi. Yeri

[4] Vəhy 13:8.

gəlmişkən, Allahı itirməmək məsuliyyətini üzərinizə götürsəydiniz, necə olardı? Məsuliyyətsiz idarəçilikdən danışırıq! Onlar məbəddə dini rəhbərlərlə söhbət edən İsanı tapanda O onlara əla cavab verdi: "Məgər bilmirdinizmi ki, Mən Atamın işində olmalıyam?"[5] Sözün düzü, bilmirdik, İsa! Atanın biznesinin mövcud olduğunu bilmirdik. Bilmirdik ki, Sən Öz işini yer üzündə olan tərzə, hətta insani üsluba qədər məhdudlaşdıra bilərsən; bilmirdik ki, Sən Allah haqqında işgüzar Şəxs kimi danışa bilərsən.

İndi siz Məsihin "Atamın işi" barədə sözünün real həyatda olan biznesə tətbiq edilməsi haqqında düşündükdə, lütfən, bunu yadda saxlayın: biznes — iki və ya daha çox tərəfin arasında dəyərlərin mübadiləsidir. Bu mənada Müjdə — biznesdir. İsanın biznes yönlü sözləri Onun digər sözlərinə zidd deyilmi? Deyil. Əhdi-Cədiddə səmavi və ya digər mövzulara aid məsəllərdən çox maddi mülkiyyətə və şəxsi ənamların idarəçiliyinə aid məsəllər var. Allah təkcə maddi yönlü deyil; O, bütün maddi şeyləri yaradıb və hamısına sahib Özüdür. Onun dünyada şirkəti vardır. Bir gün O qayıtmaq və Öz işçilərinin/şəriklərinin vəzifələrini artıraraq onları yaratdığı hər şeyin üzərinə başçı və idarəçi təyin etmək niyyətindədir.6 Onun şeytan adlı şər və amansız bir rəqibi var; onun təsiri Yer kürəsinin əksər hissəsinə yayılıb. İmanlıların çoxu şeytana meydan oxumur, çünki onların diqqəti yer üzündəki işlərə deyil, göylərdəki istirahətə cəmlənib. Daha praktiki dillə desək, həm Allah, həm də şeytan Yer kürəsinin əhalisini təşkil edən insanların bazarı uğrunda rəqabət aparırlar. Qərar verməmiş və nadan adamlar Müjdəçiliyin hədəfidir. Allah onları yaratmışdır; bir sevən İdarəçi kimi, onların Öz niyyətinə uyğun fəaliyyət göstərmələrini istəyir.

Beləliklə, onları Allaha gətirmək üçün bir balıqçı kimi necə "ovlaya" bilərik? Axı İsa bizi "insan tutan balıqçılar"[7] edəcəyini söyləmişdir. Balıqlar nə ilə qidalanır? Onlar göylərdə istirahət yemi ilə tilova gəlmirlər, buna əmin ola bilərsiniz. Xeyr, onlar həyatın aşağıda göstərilən praktik

---

[5] Bəzən bu ayə belə tərcümə olunur. Luka 2:49.

[6] Bax Romalılara 8:17, Efeslilərə 1.

[7] Matta 4:19.

məsələləri ilə qidalanırlar:

- Özümü və ailəmi daha yaxşı necə təmin edə bilərəm?
- Necə təhlükəsiz yaşaya bilərəm? Özümü, ailəmi və mülkümü zorakılıqdan, oğrulardan, müsadirədən və cəmiyyətin dağılmasından necə müdafiə edə bilərəm?
- Həqiqi və mənalı münasibətləri necə yarada bilərəm? Bunları necə qoruyub-saxlaya bilərəm?
- Daxilində yaşadığım sistem təhlükəsizlik, ədalət və iqtisadi imkanlarla necə təmin edə bilər?

Dünyanın hər tərəfində adamlar bu cür suallar verirlər; biz məsihçilər də məhz bu cür sualları cavablandırmırıq. Biz indiki həyata aid məsələlərlə məşğul olmaq üçün öz Müjdəmizdə qeyd edilən göylərdəki istirahətdən gözümüzü çəkməkdən imtina edirik, çünki bunlar bizə həddən artıq cismani və fani görünür. Hərçənd insanlara (balıqlara) həqiqətən qayğı ilə yanaşırıqsa, nə üçün onlara istədiyimizi yedirməyə çalışırıq? Bunun əvəzində onların aclıq çəkdiyi şeyləri onlara verməliyik. Məsihçilər balıqlardan öz qida vərdişlərini dəyişməyi, ovçu dükanına (imanlılar cəmiyyətimizə) gəlib könüllü olaraq qarmağı ağızlarına taxmağı tələb edən tanıdığım yeganə balıqçılardır! Demək istədiyim budur: xalqlar burada, yer üzündə uğurlu həyat təklif edən adamları axtarır. Burada əsas sual "xilas olmamış adamlar nə ilə *qidalanmalıdırlar?"* sualı deyil, "onlar nə ilə *qidalanırlar?"* sualıdır.

Birləşmiş Ştatların prezident seçkilərində qaldırılan üç ən vacib məsələ bunlardır: iqtisadiyyat, iqtisadiyyat və iqtisadiyyat. İnsanların xəzinələri haradadırsa, ürəkləri də orada olacaq.[8] Praktiki məsələlərlə məşğul olmaq bütövlükdə pis deyil, çünki Allah və Onun Müjdəsi tam praktikdir. Ən çox təəssüfləndirən isə odur ki, məsihçilər real dünyada yaşasalar da, dünyadakı real məsələləri həll etməkdən imtina edirlər. Bu, faciədir, çünki bu, Allahı yanlış təmsil edir və dünyadakı şər sisteminə insanları istismar etməyə, onları Allahın verdiyi azadlıqdan, inkişafdan və səmərəlilikdən

[8] Bax Matta 6:21.

məhrum etməyə imkan yaradır. Allahın Müjdəsinin indi yer üzündə təsiri yoxdursa, imansızların Müjdənin səmada onlara bol həyat verəcəyinə inanacaqlarına necə ümid edə bilərik?

Lakin insanlar Allahın ciddiliyini görməyə başlayanda Onun biznes planı açıqlanmağa başlayacaq. Allah yarışda qalib gəlməklə məşğuldur; "tərəddüd edən balıqlar" məsələsini kənara qoyub bütün dünyanı narahat edən bir sahədə — həyatımıza lazımi təminat (iqtisadiyyat) sahəsində Öz həyat prinsiplərinin üstünlüyünü nümayiş etdirməklə məşğuldur.

İqtisadi müjdəçiliyin gələcəyin əsas hərəkatı olduğuna növbəti səbəblərə görə inanıram:

1. İqtisadi məsələlər bütün insanlar üçün ümumbəşəri maraq kəsb edir (buna görə də balıqlar üçün yaxşı tilov yemidir).
2. Müjdə Yaradan Allahın insanlara aid məqsədlərinə uyğun hərəkət etməyi, yaradılmış nizamının faydalarını aydın izah edir.
3. Allahın qoyduğu şəxsi və ümumi azadlıq qanunları, eləcə də ləyaqət, inkişaf və ədalət qanunları real həyatda və rəqabət mühitində mükəmməlcəsinə işləyir.
4. Biznesi və maliyyə uğurunu asanlıqla ölçmək olur. Bu səbəbdən siyasətçilərdən, ədliyyə işçiləri və digərlərindən fərqli olaraq, işgüzar adamlar Allahın Kəlamını tətbiq edə bilərlər və həddən artıq mürəkkəbləşdirən amillər olmadan Kəlamın səmərə gətirdiyini şəxsən görə bilərlər.
5. Yuxarıda qeyd olunan məsələləri həll etmək üçün məsihçilər Allahın müdrikliyini əldə edə bilərlər; *biz insanın ehtiyacı üzərində* qurulan böyük bir bazarda işləyirik.

Bu necə də dəyişkən bir vəziyyətdir! İndi biz Atanın biznes planını daha yaxşı başa düşməli, onu öz həyatımızda və məsuliyyət daşıdığımız sahələrdə tətbiq etməliyik.

"Biznesi Allaha məqbul tərzdə idarə edək" kitabı Allahın Öz Kəlamında açıqladığı idarəçilik, inkişaf və səmərəliliyin əsas prinsiplərinin ilkin

tədqiqatıdır. Allah bizə bu prinsipləri görmək və tətbiq etmək qabiliyyətini versin. Zülmün, çaşqınlığın, iqtisadiyyatın yalnız iflasa uğradan və sıxıntıya düçar edən səhv idarəçilik sistemlərinin caynaqlarında çapalayan xalqlar bizi gözləyir.

## MƏDƏNİYYƏTƏ DƏYİŞİKLİK GƏTİRƏN SƏFƏRİMİZ

Bu kitab iqtisadi, ictimai və təşkilati qanunların on iki əsas anlayışı üzərində qurulub. İyirmi ildən çoxdur ki, bu on iki anlayışı öyrədir, onları təkmilləşdirirəm. Onlar Allahın və həmçinin insanın ürəyində olan özək məsələlərə aiddir. Vaciblik dərəcəsinə görə ardıcıl deyillər və açıqlanan, məntiqi təqdimat məqsədilə sistematik tərzdə təqdim edilirlər. Bu anlayışlar Müqəddəs Yazının həqiqətinə əsaslanır və buna görə, düzgün tətbiq edildikdə səmərəli olurlar. Doğrudan da, həqiqət heç vaxt heçə çıxmır.

Bu kitab iki hissədən ibarətdir. Birinci hissə hər bir imanlıya və onun bazardakı roluna təsir göstərən ilahiyyat məsələlərinə toxunur. İkinci hissə həmin məsələlərin siyasiləşmiş dünyaya təsirini göstərir. Biz şəxsi məsələlərdən ictimai məsələlərə tərəf gedirik.

Həqiqətin evdə təsiri yoxdursa, o, həqiqət deyil. Həqiqətin bazarda təsiri yoxdursa, parlamentdə və ya məhkəmələrdə də təsiri olmayacaq, çünki onda əsaslı şəkildə nə isə düz deyil. Pozitiv tərzdə deyək: əgər prinsiplər evdə və bazarda təsirlidirsə, xalqı nizam, ədalət və səmərəliliklə idarə etməkdə eyni dərəcədə təsirli olacaq.

*Birinci hissə* Allahın Öz övladları və onların işinə aid planlarının aydın dərk edilməsinin şəxsi həyatları kökündən dəyişdiyini, bizi tamamilə yeni yaradıcılıq və azadlıq dünyasında sərbəstlik verməsini izah edir.

*İkinci hissə* iki məsələdən danışır: (1) əvvəllər malik olduğumuz həqiqətləri rədd etdiyimizə görə bugünkü azadlığımızı itiririk; (2) bazarda Allahın həqiqətlərini tətbiq etməklə və ictimai təşkilatlarda Allahın

həqiqətlərini tətbiq edən rəhbərləri seçməklə siz və mən xaosa və iqtisadi köləliyə aparan istiqaməti dəyişmək istəyirik. Hər iki məsələ məsihçilərin məsuliyyətidir. Əslində, imanlılar yer üzündə Külli-İxtiyarın sözləri, əlləri və ayaqları olmalıdırlar, çünki onlar Allahın yer üzündəki şirkətini idarə etmək, insanları qüvvətləndirmək, onları nadanlıqdan və əsarətdən qurtarmaq üçün yer üzünə təyin olunublar.

# I hissə: İdarəçilik və azad sahibkarlıq quruculuğuna aid Allahın əsas prinsipləri

# 1-ci fəsil: Allah ailə biznesi qurur

*Məgər bilmirdiniz ki, Mən Atamın işində olmalıyam?*
—LUKA 2:49

## ƏSAS PRİNSİP № 1: Allah şəxsi mülkiyyətin yaradıcısıdır.

Allah bu gün yer üzündə nə edir? Əzəldən bəri O nə edir? Sabah, gələcək illərdə, ümumiyyətlə, Onun tarixi bitirəcəyi vaxta qədər biz Ondan nə gözləyə bilərik? Çox vaxt cavab verirlər ki, Allah zamanın sonuna qədər və ya bir çox adamın ölümünə qədər onları xilas etmək işi ilə məşğuldur ki, səmanı məskunlaşdırsın. Amma bu belə olsaydı, Allah Müqəddəs Yazıların əksər hissəsini icrasız qoyaraq bizi dərhal göylərdəki istirahətə çatdırardı, halbuki Yazılar bizim yer üzündəki məsuliyyətlərimizdən danışır.

Demək olar ki, Allah Öz Padşahlığını qurmaqdadır. Belə ifadə etmək düzgün olardı. Amma bu, kar qulağa deyilmiş sözlərə bənzəyir, çünki bir çox məsihçilər "Allahın Padşahlığ" haqqında o qədər eşidiblər ki, daha buna əhəmiyyət vermirlər. Həddən çox, səhv işlədildiyinə və sui-istifadə olunduğuna görə bu ifadə öz məğzini itirmişdir.

Buna görə də mən "Allah iş adamıdır; O, biznesini qurur" deməyi xoşlayıram. Qeyri-adi səslənsə də, bu, Müqəddəs Kitaba uyğundur. Bunu anlasaq, giriş sözündə qeyd olunduğu kimi, tarixdə öz vəzifəmizi tam fərqli dərk edəcəyik.

Müjdəçi aləminin əksər hissəsində üstünlük təşkil edən həyat tərzi bu münasibəti əks etdirir: "Artıq xilas olmuşuq; Tarixə Allah nəzarət etdiyinə görə biz, sadəcə, öz işlərimizlə məşğul olaq: böyük günahlardan uzaq duraq, imkan olanda müjdəçilik edək, 'uğurlu' imanlılar cəmiyyətləri quraq, sonra isə buranı tərk edək."

Bu, Allahın istəyi deyil. Yaradılış 1:26-28 deyir ki, biz yer üzündə və

burada olan hər şey üzərində hökmranlıq etmək üçün Allahın surətində yaradılmışıq. Bu o deməkdir ki, biz Allahın əsas məqsədləri, istəkləri və niyyətlərinə uyğun yaşamaq üçün yaradılmışıq. Bunlar ilk öncə yer üzündə, əbədiyyətə köçməyimizdən əvvəl gerçəkləşməlidir. Allah yer üzündəki həyatı Öz nizamına salmaq niyyətindədir və bunu etmək üçün O imanlılardan istifadə etmək istəyir. Məhz buna görə biz "əvvəlcə Onun Padşahlığını axtarmalıyıq"[9] və "Padşahlığın gəlsin, göydə olduğu kimi, yerdə də Sənin iradən olsun" deyə dua etməliyik.[10] Bizim missiyamız səmada deyil; görüləsi iş burada, yer üzündədir.

## ALLAH BİZİM VASİTƏMİZLƏ "KÜLLİ-İXTİYAR VƏ AİLƏ"Nİ YER ÜZÜNDƏ GENİŞLƏNDİRMƏK İSTƏYİR

Sadə dildə desək, Ata Allah bir ailə biznesi qurur. Mən bunu "Külli-İxtiyar və Ailə" adlandırıram. O, Öz övladlarının hər birinin bu biznesdə iştirak etməsini istəyir. O bu biznesin hər birimizin vasitəsilə böyüdülməsini istəyir. Allah Öz biznes şirkətini yer üzünə gətirmək və bu işdə hər bir imanlıya iştirak etmək imkanı vermək istəyir. Allah Öz övladlarının bu biznesdən xeyir əldə etmələrini istəyir; dünyada yaşayan ehtiyacı olan, əzab çəkən adamların Onun biznesinin təklif etdiyi xidmətlərdən faydalanmasını istəyir. Biznes bunu mümkün edir. O, bacarıq və qüdrət verir, siz isə bazarı təchiz edirsiniz.

Yenidən doğulanda siz ailə üzvü oldunuz. Biznesdə Məsihlə birlikdə şərik varis oldunuz.[11] Həmin andan etibarən Ata sizin digər ailə üzvləri ilə bərabər ailə biznesində yerinizi tutmağınız üçün çalışır. Niyə biz Allahın dünyadakı işini "ailə biznesi" adlandırırıq? Çünki Məsih əmanət pul haqqında məsəlində[12] məhz bundan bəhs edir. Məsihi təmsil edən

---

[9] Matta 6:33.

[10] Matta 6:10.

[11] Romalılara 8:17.

[12] Bax Luka 19:11-27.

zadəgan uzun səfərə çıxmazdan əvvəl hər xidmətçisinə bir mina (təxminən üç aylıq maaşa bərabər pul) verir və onlara deyir: "Mən gələnə qədər bunlarla ticarət et" (Luka 19:13). Qayıdanda işçilərinin hər birini yanına çağırıb "nə qazandıqlarını öyrənmək istədi" (15-ci ayə). Qazanclarını bilib fərasətlərinə görə onlara yeni öhdəliklər verdi. Əmanət pul haqqında məsəl Məsihin Öz Padşahlığı üzərində hökm etməsi və Öz xidmətçi övladları arasında işi bölüşdürməsindən bəhs edir. Bu, biznesdəki idarəçiliyə oxşayır.

Əgər siz Məsihdəsinizsə, kiçik bir şərik kimi Onun Padşahlıq biznesini yer üzündə genişləndirməyə çağırılmısınız. Siz həyata, münasibətlərə, rəhbərliyə aid Allahın idarəçilik prinsiplərini Müqəddəs Yazılarda aşkar etməyə, onları həm şəxsi həyatınızda, həm də başqaları ilə münasibətinizdə tətbiq etməyə çağırılmısınız. Bu idarəçilik prinsiplərinin düzgün istifadəsini və müvafiq tətbiqini Müqəddəs Ruhdan öyrənməlisiniz. Siz əməkdaş olmalısınız. İsa kimi, siz də hər bir vəziyyətdə Atanın verdiyi həyatı və xeyir-duaları bütün insanlara ötürmək fürsətini axtarmalısınız. Həmçinin vəzifəniz — sizə verilmiş resurslara qayğı ilə yanaşmaq və onları ədalətlə idarə etmək, eləcə də öz həyatınızdan və ailənizdən düşməni/rəqibi (şeytanı) kökündən çıxarmaqdır. Siz ölülər diyarının qapılarına hücum etmək[13] fürsətlərini axtarmalısınız və şeytanın dünya sistemi tərəfindən əsir götürülmüş adamların ağıllarını, əxlaqlarını, həyat tərzlərini azad etməlisiniz.

Siz, sadəcə, xilas olmamısınız, siz seçilmisiniz. Siz Onun ailə biznesindəsiniz; bu biznesi həm daxilinizdə, həm də ətrafınızda, hətta yer üzünün qurtaracağınadək genişləndirməlisiniz. Siz Padşahlığın qanunlarını öyrənməli və vaxt ötdükcə daha peşəkarcasına tətbiq etməlisiniz. Dost, siz Allahın "Peşəkar Biznes Administrasiyası" proqramında iştirak edirsiniz və əsas məsələ — sizin necə tələbə/işçi olmağınızdır. Siz təkcə özünüz və göylərdəki istirahətiniz barədə düşünürsünüz? Yaxud İsa kimi, Atanın yer üzündəki işlərinin

---

[13] Bax Matta 16:18.

genişlənməsi üçün çalışırsınız?

Bu kitab Müqəddəs Kitaba əsaslanan iqtisadiyyat və idarəçiliyin on iki əsas prinsipi üzərində tərtib olunub. On iki əsas prinsipdən hər birinin nəticələri və ya əlavə həqiqətləri var; bunlar idarəçiliyin əsas sahələrinə, eləcə də milli və beynəlxalq iqtisadi məsələlərə aiddir. Birinci fəsildə müzakirə edəcəyimiz əsas prinsip Allahın şəxsi mülkiyyəti yaratması haqqındadır. Bu, bütün tədqiqatın çıxış nöqtəsidir və məncə, iqtisadiyyatın Müqəddəs Yazılara əsaslanan araşdırmasının müqəddiməsini təşkil edir.

## ƏŞYALARA SAHİB OLMAQ GÜNAHDIRSA, ONDA ALLAH GÜNAHKARLARIN BAŞÇISIDIR

Allah "şəxsi mülkiyyət" adlanan anlayışın Müəllifidir. O həm ruhani, həm də maddi olan hər şeyi yaratmışdır; bunların hamısı Ona məxsusdur. Əgər siz maddi şeylərə malik olmağı ruhanilik deyil, cismanilik hesab edirsinizsə, onda məntiqə görə siz inanmalısınız ki, Allah günahkarların başçısıdır və hamımızdan daha cismanidir. Amma buna inanmadığınızı bilirəm. Yalnız yalançı müəllimlər bizə belə şeyləri öyrətməyə çalışıblar. Ümidvaram, onlar öz yalan təlimlərinin mahiyyətini özləri də başa düşməyiblər. Şəxsi, maddi mülkiyyət və ona aid Müqəddəs Yazılara uyğun olan hüquq və öhdəliklər istismarçı insanın və ya şeytanın cismani icadı deyil, Allahın planıdır. Allah Özünü bütün maddi şeylərin yeganə və haqlı mülkiyyət sahibi elan edir: "Rəbbindir yer üzü və orada mövcud olanlar, dünya və orada yaşayanlar."[14]

Aydındır ki, maddi mülkiyyətçilik tam etinasızlığa, başqalarının real maddi ehtiyaclarına məhəl qoymamağa gətirib çıxarmamalıdır. Amma gəlin Allahın Öz Kəlamında yazılanı qəbul edək: bütün resursların sahibi Allahdır və Allah bunların hamısını müvəqqəti olaraq idarə etməyi insana tapşırıb. Bunlar Allahın yer üzündəki Padşahlığının işini genişləndirmək

---

[14] Zəbur 24:1.

üçün istifadə olunmalıdır. Şəxsi mülkiyyət anlayışına həmlə edən və bunun mənşəyindən xəbərdar olmayan Russo, Karl Marks və digər liberal təfəkkürlü professorlar, sadəcə, Məsih əleyhdarıdırlar; çünki bütün mülkiyyətin oğurluq olduğunu iddia edirlər.

Fəlsəfə dərsinə varmadan qeyd etməliyəm ki, mülkiyyət əleyhinə və maddiyyat əleyhinə olan inanc sistemi, əslində, "Qnostisizm" adlanan çox köhnə bir anlayışdır. Erkən imanlılar cəmiyyəti ataları yüz illər əvvəl qətiyyətlə bunun əleyhinə getmişlər. Bu həmçinin "dualizm" də adlanır; ruhu "xeyir", bütün maddi şeyləri isə "şər" hesab edir; bu nəzəriyyəyə görə, həqiqətən ruhani olmaq üçün insan bütün maddi şeyləri inkar edib "ruhda" yaşamalıdır. Halbuki Müqəddəs Ruh bizə tam xeyir-dualı olmağı və hər cəhətdən — həm ruhani, həm də təbii sahələrdə rifahda olmağı təkid edir.[15]

## ALLAHIN PLANI MADDİDİR

Həm məsihçilik, həm də bütün dünya fəlakətli şəkildə iki şeyin təsirinə məruz qalmışdır: birincisi, mənəvi olanın guya yalnız kasıbçılıqda mümkün olduğuna inam; ikincisi, əsl mənəviyyat maddi dünyanı və onun problemlərini rədd etməlidir. Maddi aləmə, əşyalara və xidmətlərə sahib olmağa, onları idarə etməyə qarşı çıxan bu hücuma aidiyyəti olan iki əsas həqiqəti hamımızın yadına salmaq istəyirəm.

1. Paulun Filipililərə 2:7-də dediyi kimi, Atanı məmnun etmək və təvazökarlığını nümayiş etdirmək üçün İsa "Özünü heç etdi" (izzətdən, sahib olduğu şeylərdən məhrum etdi). O, səmadakı qüdrətindən imtina etdi; bunu malik olduğu şeylərin mahiyyətcə şər olduğuna görə deyil, fəzilətə görə etdi. Bunlar şər olsaydı, niyə O, Yəhya 17:5-də bütün izzətini geri istədi? Yaradan olduğu halda O, Öz sahiblik hüququndan imtina etməklə hər şeyin üzərində zəfər çaldı. "Əks ruhda hərəkət etmək" prinsipi çox dərin

[15] Bax 3 Yəhya 2

məsələdir və bu kitabımızın mövzusuna daxil deyil. Məğzi budur: İsa müəyyən dövr üçün və müəyyən səbəbə görə kasıb oldu. Birinci zühurunu bitirəndən sonra O, yenidən əzəldən malik olduğu bütün izzətini, qüdrətini və sahibliyini geri aldı.[16]

2. Maddi dünyanı və onu idarə etməyi inkar etmək əvəzinə, Allah onu nizama salır. Allah Öz ruhani niyyətlərini maddi dünyada təcəssüm etdirir. İsa Məsih 1№-li Maddi Sübutdur: "Kəlam bəşər olub lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı."[17] Allahın bir niyyəti olanda O onu kainatda təcəssüm etdirir. Allah hər şeyi *maddilikdən* ruha çevirmək istəyən yalançı müəllimlərə zidd hərəkət edir. Allah yaradılışını Öz nizamına gətirmək üçün Öz Ruhu ilə imanlılarını idarə edir.

Yaxşı yadımdadır: bir gün piyada gəzintiyə çıxanda Allahın Ruhu mənə bir bildirişlə təsir etdi: "Dennis, Mən və sən əks istiqamətlərdə gedirik. Mən get-gedə daha çox yerə tərəf hərəkət edirəm, sən isə oradan çıxmağa can atırsan." Mən ağlamağa başladım, çünki problemi dərk etdim. Allahın övladları yer üzündən çıxmağa və "Ruha" daxil olmağa çalışırlar, Allah isə şirkətini genişləndirmək üçün Öz övladları vasitəsilə getdikcə daha çox planetin özündə, maddi aləmə doğru hərəkət edir. Birdən Məsihin "Padşahlığın gəlsin, göydə olduğu kimi, yerdə də Sənin iradən olsun"[18] duası mənim üçün tamamilə yeni məna kəsb etdi. Problemlər göylərdəki Ruhda deyil, yer üzündəki maddi aləmdədir! Hərəkət məhz burada baş verir və Padşahlığın işi burada yayılmalıdır. Təəccüblü deyil ki, şeytan bizim maddi aləmi, onun idarəçiliyini inkar etməyimizi istəyir. O bunları özü və öz padşahlığının işi üçün saxlamaq istəyir. Bu, ağıllı bir hərəkətdir, lakin kifayət qədər dərin deyil. Allahın övladları oyanmaqdadır; idarəçilik ənamına və anlayışına malik olan kəslər xüsusilə diqqətlidirlər. Onlar öz işlərinin nəticələrinin şeytanınkına nisbətən mahiyyətcə üstün olduğunu bilirlər.

---

[16] Bax Yəhya 17:5.

[17] Yəhya 1:14.

[18] Matta 6:10.

# ALLAHIN PADŞAHLIĞINDA İKİNCİ NÖV VƏTƏNDAŞ OLMUR

Maddi idarəçiliyə qarşı çıxan yalançı təlim xüsusilə adi məsihçiyə fəlakətli təsir göstərir. Pastordan fərqli olaraq, o, maddi dünyada dolanışığını təmin etməlidir. Bu yalançı təlim imanlılar cəmiyyətində "ikinci növ vətəndaşlıq" anlayışını yaradıb. Siz ruhanisinizsə və ya "xidmətə çağırılmısınızsa", onda bütün vaxtınızı Allahın işinə həsr edirsiniz. Əks halda siz günahlı dünyada işləyir, bacardığınız yerdə müjdəçilik edir və bəzən təəccüblənirsiniz ki, axı niyə Allah sizi kifayət qədər sevmədi, sizə Onun tarlasında işləməyi tapşırmadı və bu maddi dünyanın yükündən azad etmədi?! Ən yaxşı halda siz imanlılar cəmiyyətində köməkçi və ya uşaqların Müqəddəs Kitab müəllimi ola bilərsiniz. Ən pis halda isə yerli imanlılar cəmiyyəti üçün "sağmal inək" olacaqsınız; daim öz layihələrini işlətmək üçün sizdən vəsait istəyəcəklər.

Şükür Allaha ki, "bütün imanlıları kahin" edən ruhani inqilab baş verməkdədir. Bu, Martin Lüterin inqilabına bənzəyir. Lüterin dediyi kimi, bütün imanlılar Rəbb qarşısında kahindirlər[19]; lakin bundan başqa, bütün Ruhla istiqamətləndirilən peşələr də Allah tərəfindən verilir və dəyərə malikdir. Allahın Padşahlığındakı şirkətə hər növ işçilər tələb edilir: lehimçilər, mühasiblər, satıcılar, evdar qadınlar və icraçı direktorlar. Onların hamısı Atanın iradəsini və Onun Padşahlığının yollarını həyatın hər sahəsinə gətirməyə çağırılıb. Allahı mülkiyyət Sahibi və Ruhun yaratdığı maddi şeylərin İdarəçisi kimi tanıyandan sonra daha siz ikinci növ vətəndaş olmursunuz. Çıxış Kitabı 31:1-3-cü ayələri ilk dəfə oxuyanda azadlıq verən bu həqiqəti görməli idik; Musanın adamları arasında ilk "Ruhla dolu" olanlar peşəkarlar və sənətkarlar olublar.

Bir pastor və iş adamı kimi səmimiyyətlə deyə bilərəm ki, imanlılar cəmiyyətləri kimi idarə olunan müəssisələr bir ilə dağılar. Bu, pastorlara və imanlılar cəmiyyətlərinə qarşı bir tənqid deyil, sadəcə, dünya üzrə

---

[19] Bax 1 Peter 2:9.

imanlılar cəmiyyətində üzləşdiyimiz sadəlövhlüyə qarşı bir sözdür. "Ruhani" olmağa səylə çalışarkən biz planlaşdırma, strateji vəzifələr, büdcə təhlilləri, səmərəlilik, cavabdehlik və bir çox digər "dünyəvi" idarəçilik məharətləri kimi Müqəddəs Kitab əsaslı səriştələri inkar etmişik, çünki biz onları ruhani dünyaya deyil, mülkiyyət dünyasına aid etmişik. Şükür olsun ki, bu cür qnostik cəfəngiyatın strateji təfəkkürlü sahibkar Allaha təslim olmağa başladığını görə bilirik. Padşahlığın işini tanımağa başlayıblar, xüsusilə də biznes sahəsi üzrə peşəkarlar və bu həqiqəti qəbul edən adi müqəddəslər. İnsanları və şeyləri idarə etmək günah deyil; bu, Padşahlığın tapşırığıdır.

## YER ÜZÜNDƏ YAŞAYARKƏN RUHANİ BACARIQLARIMIZI İNKİŞAF ETDİRİRİK

Qalatiyalılara 3:23–4:7-də Paul Allahın övladlarının qəyyumun nəzarəti altında olduğunu söyləyir. Ata onlara daha böyük idarəçiliyi tapşırana qədər onlar bu qəyyumdan təlim və hazırlıq alırlar. Yer üzündəki həyatın nizam-intizamları altında olarkən Allah bizi bir gün qul kimi deyil, varis kimi Öz yanına çağıracaq.[20]

Yer üzündə yaşayaraq həyat, gerçəklik, münasibətlərdə və maddi idarəçilikdə olan problemləri həll etməyi öyrənəndən sonra biz daha çox təlim və öhdəçilik üçün hazır oluruq. Gələcək dövrdə bəhrə gətirən müqəddəslər əllərində arfa buludlar üstündə uçmayacaqlar, şəhərləri idarə edəcəklər. Bəziləri hətta bütöv xalqları idarə edəcək, qızıl şap-şaplarda boş-bekar gəzməyəcəklər.[21] Çünki Allah Öz kainatının ali idarəçisidir və O Öz övladlarına Yer kürəsini ilk mərhələ kimi istifadə edərək Məsihin nəzdində idarə etməyi öyrədir. Problemlər insanı gücləndirdiyinə görə Padşahlığın işinə aid qaydaları öyrənən tələbələrin Allahın sözünü tətbiq etməklə yer üzündəki problemləri həll etməyi öyrənmək üçün çoxlu

[20] Qalatiyalılara 4:7.
[21] Bax Matta 24:46; Luka 12:44: Vəhy 2:26.

imkanları olacaq.

Yer üzü bizim üçün Allah tərəfindən təyin edilmiş bir emalatxanadır; biz burada yalnız günahdan qorunmaq üçün yaşamırıq. Biz günahı kənarlaşdırmaq üçün və cəmiyyətdə günahın təsirini yoxa çıxartmaq üçün yaşayırıq. Matta 16:18-də İsa deyir ki, ölülər diyarının qapıları Onun imanlılar cəmiyyətinə qalib gələ bilməyəcək. Məsihçilərin çoxu elə yaşayır, sanki işimiz bizi udmağa çalışan ölülər diyarının qapılarından qorunmaq və son dəqiqədə İsanın bizi xilas edəcəyinə qədər tab gətirməkdir. Bu, İsanın fikri deyil.

Yuxarıda qeyd etdiyim kimi, İsa bizi *ekklesia* adlandırır. Bu, yunan aləmində əsrlərlə məlum olmuş bir təsisat, cəmiyyətdir. Bu, mülki işləri idarə edən təmsilçi cəmiyyət olmuşdur. Bu, tör-töküntülərdən ibarət partizan ordusu və ya əzilmiş, təqib olunan azlıq olmayıb. Bu, layiqincə təşkil edilmiş bir səlahiyyət olub. Öz xalqını *ekklesia* ("imanlılar cəmiyyəti") adlandıraraq, Məsih dünya işləri üzərində bizə tam səlahiyyət verir. Məhz buna görə Roma imperiyası imanlılar cəmiyyətini özünə rəqib hesab edərək ondan qorxurdu.

Məsihin niyyəti bizim ölülər diyarının qapılarına qarşı duraraq cəhənnəmin qəzəbinə sinə gərməyimiz deyil. Məsihin niyyəti odur ki, biz Onun *ekklesia*sı olaraq Onun səlahiyyəti altında hərəkət edək, ölülər diyarının qapılarına hücum edək, bu dünyada cəhənnəmin təsirini azaldaq və bununla da Məsihin hər şeydə hər şey olduğunu göstərək.

## SINAQLARIMIZIN ÇOXU ÖYRƏNİLMƏLİ OLAN DƏRSLƏRDİR

Yer üzü bizim emalatxanamızdır; o, sınaqlar, çətinliklər və müqavimətlə doludur. Bunların hamısı Allah tərəfindən böyüməyimiz üçün nəzərdə tutulub. Biz ölülər diyarının qapılarına hücum etməliyik. Biz hücumdayıq; silahlarımız tüfəng və bomba deyil. Silahımız — Allahın Kəlamına itaət etməkdə, duada, vəzdə, təlimdə, müzakirələrdə və ehtiyacda olanlara

fədakar xidmətimizdədir. Bunlarla biz insanları qul edən yanlış ruhani ideologiyaları və təcrübələri deviririk. Qısaca desək, biz Müqəddəs Yazılara əsaslanan Allahın mövqeyini, eləcə də Allahın gerçəkliyini və Allahın yer üzünə aid əmrlərini aşkar edirik. Müqəddəs Kitaba əsaslanan dünyagörüşü sayəsində Müqəddəs Ruhun köməyi ilə Allahın Kəlamını tətbiq edəndə bunun təbii nəticəsi oyanış olacaq.

Atamızın emalatxanasında biz göylər üçün hazırlıq keçirik. Lakin imanlıların çoxu bu emalatxanada Allahın bəxş etdiyi problemləri həll etmək istəmir. Onlar bütün çətinlikləri iblisin hücumlarının nəticəsi hesab edirlər. Əminəm ki, iblis olmasaydı, imanlılar onu icad edərdilər! Çətinliklərimizin əksəriyyəti Allahın bu emalatxanada bizim üçün hazırladığı çalışmalar və dərslərdir. Çətinlikləri şeytana aid etməyi dayandırsaq, onları Allahdan gələn və Onun Kəlamı ilə həll olunan dərslər kimi qəbul etməyə başlasaq, Allahın Kəlamının qüdrətini tamamilə yeni təcrübi yolla yaşayarıq. Onda biz “duyğularını (yəni təcrübədə) xeyirlə şəri ayırd etməkdən ötrü həssas edənlər”[22] kimi olacağıq.

Bütün bu həqiqətlər keçmişə, Allahın maddi dünyanı yaratmasına, Onun üçün mülkiyyəti idarə etmək tapşırığına və Allahın yolu ilə problemləri həll etmək əmrinə aiddir. Bu fəsildə biz ilahiyyat əsaslarına çox vaxt sərf edirik, çünki bu əsas olmasa, yoldan çıxmaq təhlükəsi ilə üzləşəcəyik. Bir tərəfdən, biz adi materializmə uyuruq; missiyamızın “varlanmaq” deyil, Allahın məqsədləri və üsulları ilə Onun vəsaitlərini idarə etmək olduğunu unuduruq. Digər tərəfdən isə “tam xidmət” və ya “ruhani” şeylər səbəbi ilə vəsaitlərin və mülkiyyətin idarəçiliyini inkar edən yalançı ruhanilik quyusu var. Tarazlı xidmət əşyaları və ya ruhları deyil, Allahı axtarır.

## ƏSAS MƏSƏLƏ REAL DÜNYADA REAL ŞEYLƏR ÜZƏRİNDƏ HÖKMRANLIQ ETMƏKDİR

Artıq qeyd etdiyimiz kimi, şeytanın mülkiyyət və maddi şeylərin

[22] İbranilərə 5:14.

idarəçiliyinə həmlə etməsinin səbəbi özünün bu yer üzünün ehtiyatları üzərində hökmranlıq etmək istəyidir. Belə edir ki, məsihçilik əsir düşmüş xalqlara təsir göstərməsin. Şeytan tam inhisarçılıq istəyir. Əgər həm Allahın Padşahlığının, həm də şeytanın padşahlığının hakimiyyətinin genişləndirilməsi üçün insanların maddi bədənləri və maddi vəsaitlər tələb olunursa (əslində, vəziyyət belədir), onda Allahın xalqını yalançı və azdırıcı "ruhani" fərziyyələrlə kor etmək zəruridir.

İnsanların əksəriyyəti gələcək "ruhani" aləmdə deyil, *indiki* maddi dünyada yaşamağın qayğısını çəkirlər. Bu şəksiz gerçəkliyi də nəzərə alsanız, üzləşdiyimiz böyük problemi görəcəksiniz. İmanlıların çoxu Məsihin Müjdəsinin əsasən gələcəyə aid olduğunu düşünürlər; bu səbəbdən Müjdənin "burada və indi" yaşamaq istəyən imansızlara aidiyyəti az olur. Məsihçilərlə imansızlar heç ünsiyyət belə, qurmurlar. Məsihin Padşahlığının müraciətnaməsi isə körpü yaradır. "Burada və indi" olan dünyada şagirdlik prinsipləri indiki vaxt ilə əbədiyyət arasında əlaqəni aydıncasına göstərir. İndi malik olduğunuz şeylərin idarəçiliyi sizi gələcəyə və daşıyacağınız məsuliyyətə aparan növbəti addımdır.

## GƏLİN ÖYRƏNDİKLƏRİMİZİ TƏTBİQ EDƏK

Sözümün məğzi "Birləşmiş Ştatları" və ya hər hansı bir xalqı "xilas etmək" deyil. Xalqları sevsək də, məqsədimiz onları xilas etmək deyil. Məqsədimiz Allahın yer üzündəki emalatxanasında olarkən özümüzü bizə itaəti öyrədən Ataya həsr etməkdir. İtaətdə səmərəli olsaq, nəticədə xalqları şagird edəcəyik. Biz Məsihi "hər şeydə hər şey" edən Atanın istifadə edə biləcəyi faydalı alətlər olmaq istəyirik. Biz imanlılar cəmiyyətini geriyə, emalatxanaya çağırırıq və deyirik: "Ata 'Külli-İxtiyar və Ailə' biznesini qurur; onu qurduqda O Öz Kitabını bəşəriyyətin yaşayışına tətbiq etməyi bizdən tələb edir."

Allah qarşımızda böyük imkanlar açıb. Şeytanın dünya sistemindəki padşahlığının işi "gəmini qəzaya uğratmaqdır". Gəmi qayalara çırpılsa, dağılıb batmağa başlayacaq. Biz dünyaya gəmini qayalardan

uzaqlaşdıraraq onu təmir etməyin yolunu göstərə bilərik. Amma bunu etmək üçün biz Müqəddəs Yazıların həqiqətləri üzərində möhkəm dayanmalıyıq və dünyanın təfəkkürü üzərində hökm sürmüş və dünyanı indiki alt-üst vəziyyətə gətirmiş yalanları dağıtmalıyıq.

Çoxumuz İsanın "Mən gələnədək bunlarla ticarət et"[23] sözlərini səhv başa düşür. Bizə elə gəlirdi ki, bu oyunun adı belədir: "Xilas ol, müqəddəs qal, rahat icmanda qal və qoy dünyanın qalan hissəsi cəhənnəmə getsin", yaxud belə "Şükür, İsa gəlib bizi Atanın düzəldə bilmədiyi qarmaqarışıqlıqdan qurtaracaq". Mən bu imanı "adi imansızlıq" adlandırıram!

Bu məğlub edici xəbər tarixdə olmuş Xoş Xəbər deyil. Bu xəbər on səkkizinci və on doqquzuncu əsrin dünyəvi "maarifçilik" fəlsəfəsindən irəli gəlib. Bu xəbər bütpərəst anlayışın kökündür; bu anlayışa görə, məsihçilik insanın dünyadakı problemlərini həll etmir, yer üzünə və onun sakinlərinə rəhbərlik etmək və onların qeydinə qalmaq üçün məsuliyyət daşımır. Bu, bir çox müasir müjdəçi imanlıları belə düşünməyə sövq edir ki, Müqəddəs Kitab sizi səmaya aparan yolu öyrədir, lakin həyatı təcrübi yol ilə idarə etməyə gəldikdə, sizə çox az şey təklif edir; biznesi necə idarə etmək barədə daha da az öyrədir, bir şəhəri və ya xalqı idarə etmək barədə isə heç nə demir.

Çox vaxt bu yalan məsum səslənən bir ifadə ilə gəlir: "Müqəddəs Kitab iqtisadiyyat dərsliyi deyil" (yaxud elm, ya qanun, ya hökumət və ya başqa bir şey; Müqəddəs Kitab yalnız xilası öyrədir). Doğrudur. Müqəddəs Kitab bunların hər hansısa üzrə bir dərslik deyil. Müqəddəs Kitab *bunların hamısı* üzrə və həyatda olan hər şey üzrə bir dərslikdir. Hər fənni ayrı-ayrılıqda bir sistem kimi öyrənərkən Müqəddəs Kitabı bir dərslik kimi istifadə etmək olmaz. Çünki Müqəddəs Kitab Allahdan ilham alıb; Allah həyatdakı hər bir şeyi bir-biri ilə sıx əlaqədə və bir-birinə təsir göstərən tərzdə yaradıb.

---

[23] Luka 19:13.

# ATANIN ŞİRKƏTİNİ QURMAQ QAYDALARINA QISACA BAXIŞ

Biz dünyanın yollarından istifadə edərək dünyanı dəyişə bilmərik. Biz marksist inqilabçıların, kapitalizm lordlarının və ya digər dünyəvi hərəkatın strategiyasını təkrarlaya bilmərik. Allahın ailə biznesini dörd Müqəddəs Yazı prinsipi üzərində qurmalıyıq:

1. Dəyişiklik həm fərdi, həm də təşkilati səviyyədə daxildən xaricə işləməlidir.
2. Dəyişiklik yerli miqyasda başlayıb milli və daha sonra beynəlxalq miqyasadək irəliləməlidir (yəni aşağıdan yuxarıya(.
3. Dəyişiklik hərtərəfli olmalıdır, həyatın hər bir sahəsinə təsir göstərməlidir, indiki zamandan əbədiyyətə üz tutmalıdır.
4. Dəyişiklik zalım qəsbkarların deyil, xidmətçi-rəhbərlərin saleh idarəçiliyi ilə olmalıdır.

Biz Allahın nümunəsinə uyğun tərzdə qurmalıyıq. Allah dünyanı daxildən xaricə dəyişdirir, kiçik bir şeydən başlayıb böyüdür, həyatın hər bir sahəsini kökündən dəyişdirir, xidmətçi ürəyi olan adamlardan istifadə edir. Xalqı təkcə qanun ilə dəyişmək qeyri-mümkündür. Xalqı yenidən doğulma və təqdis ilə dəyişmək mümkündür. Nəticədə qanunlar da dəyişəcək.

Bir-biri ilə əlaqədar olan ilk iki prinsipə İsanın Padşahlıq haqqındakı sözlərində rast gəlmək olur. İsa deyib: "Allahın Padşahlığı müşahidə ilə gəlməz. Adamlar 'bax, o buradadır' yaxud 'oradadır' deməyəcəklər, çünki budur, Allahın Padşahlığı sizin daxilinizdədir."[24]

> *O, bir adamın bağçasına əkdiyi xardal toxumuna bənzəyir. O toxum böyüyüb ağac olur. Göydə uçan quşlar onun budaqlarında yuva qurur... O, xəmir mayasına bənzəyir. Qadın onu götürüb üç kisə una qarışdırıb bütün xəmir acıyanadək saxlayır.* —Luka 13:19-21

[24] Luka 17:20-21.

Bu o demək deyil ki, biz zahiri dəyişikliyə can atmırıq. Can atırıq. Biz yerli və ya milli ictimai qaydaları dəyişməyin faydalı olduğuna inanmırıq. Biz ilk olaraq fərdlərdə və ailələrdə, daha sonra isə geniş dairələrdə işləyən Allahın dəyişdirici qüdrətinə inanırıq. "Əgər insan yenidən doğulmasa." Yəni insan tam yenidən doğulmalıdır.[25]

Üçüncü prinsip ondan ibarətdir ki, biz hərtərəfli tikməliyik. Paul Timoteyə yazır: "Allah adamı bacarıqlı olub hər yaxşı iş üçün təchiz edilsin"[26] deyə Allah Müqəddəs Yazılara zəruri olan şeyləri qoyub.Çox vaxt Əhdi-Cədid imanlıları olan bizlər buna yalnız Əhdi-Cədid nöqteyi-nəzərindən baxırıq. Amma Paul Əhdi-Ətiq haqqında danışırdı, çünki o məqamda hələ Əhdi-Cədid yox idi; o hələ tamamlanmamışdı. Əhdi-Cədid Müqəddəs Yazıları öyrənməyi məsləhət edəndə birbaşa Əhdi-Ətiqi, dolayısı ilə Əhdi-Cədidi nəzərdə tutur. Kitabı elə şəffaflıqla, məshlə və dərindən oxumalıyıq ki, üsyankar insanın bütün problemlərini həll edə bilək. Bu, qarşımıza çıxan əsas çətinlikdir. Bizə bütöv qılınc lazımdır, təkcə Əhdi-Cədid hissəsi yox!

Ailənin bərpasının sirləri Kitabdadır. Fərdin bərpasının sirləri Kitabdadır. Narkotik probleminin həlli Kitabdadır. Təhsil böhranının həlli Kitabdadır. Vergilərdə, kənd təsərrüfatında, ətraf mühitdə insanın yaratdığı bütün bəlalı problemlər Allahın Kəlamını sistematik və strateji olaraq tədqiq və tətbiq etməklə həll olunmalıdır. Biz Allahın Kitabına ciddi yanaşarkən Allah rəyasətlərə, qüdrətlərə və bütün səmavi tamaşaçılara — böyük şahidlər buluduna — *Öz Kəlamının, həqiqətən, canlı və qüdrətli olduğunu,* problemləri həll etməyə qadir olduğunu nümayiş etdirəcək. Buna inanırsınızmı? Dördüncü prinsip odur ki, həqiqi rəhbərlik xidmətçilik vasitəsilə gəlir. Məsih demişdi: "Aranızda kim birinci olmaq istəsə, başqalarının qulu olsun. Beləcə Bəşər Oğlu gəlmədi ki, Ona xidmət etsinlər, gəldi ki, Özü xidmət etsin."[27] Allah İsanı təqlid edib, qul şəklini alıb özlərini

[25] Yəhya 3:3.
[26] 2 Timoteyə 3:17.
[27] Matta 20:27-28.

təvazökar edənlərə hörmət edir. [28]

Növbəti beş məntiqi həqiqəti tətbiq etməklə sosial və iqtisadi dəyişikliyə addım-addım təsir etmək niyyətindəyik:

1. Azadlıq Allaha tabelikdə özünü idarə etməkdən başlayır.
2. Ailə birliyi sağlam cəmiyyətin əsas tərkib hissəsidir.
3. Yerli imanlılar cəmiyyəti səmərəli məsihçi xidmətini təmin edən əsas mərkəzdir.
4. Şəxsi mülkiyyətin idarəçiliyi şəxsi və ictimai yetkinlik üçün zəruridir.
5. Xalqın bərpası yerli icmanın bərpasından başlayır.

Bu həqiqətləri kitabın qalan hissəsində daha çox tədqiq edəcəyik. Hələlik isə bunu demək kifayətdir: münasibətlər, istedadlar və qeydinə qalacağımız şeyləri bizə verməklə İsa Məsih bizi yetkinliyə çatdırır. Bunların hamısı azadlığa, ailəyə və 1960-cı illərdən başlayaraq yürüşə çıxan məsihçiliyə qarşı olan qüvvələrə tam ziddir. Təsadüfi deyil ki, insanları dövlət bütündən asılı olmağa vadar edən sosialist ideologiya gündəmi həmişə: (a) ictimai təhsili icbari edərək övladların düşüncə tərzini onlardan alırdı; (b) şəxsi mülkiyyəti əsaslı şəkildə ləğv edirdi və ümumiyyətlə, əhalini idarəçilikdən məhrum edirdi: və (c) imanlılar cəmiyyətinin kökünü kəsir və ya onu yalnız səmaya aid məsələlərlə məşğul olmağa məcbur edirdi. Yeni sosial nizamın üç bünövrəsi bunlardır: övladlar, mülkiyyət və imanlılar cəmiyyəti.

Yeri gəlmişkən, əgər siz kommunist hakimiyyətlərin devrilməsi ilə marksist təfəkkürünün artıq təhlükə yaratmadığını düşünürsünüzsə, onda siz bir çox Amerika universitetlərinə nəzarət edən adamlara və ideyalara fikir verməmisiniz.

## İQTİSADİ BÖHRAN İMANLILAR CƏMİYYƏTİNİ

[28] Bax Filipililərə 2:5-11.

## OYADAN ÇAĞIRIŞDIR

Niyə özəl sektora əhəmiyyət verirəm? Çünki müqəddəs Allah digər xalqlar kimi bu xalqı da mühakimə edir. Allahın mühakiməsi böyük iqtisadi oyanışa gətirib çıxaracaq. Allah tarix boyu həmişə iqtisadi böhrandan istifadə edib. Mədəniyyətlərin süqutunu tədqiq edən hər kəs bunu görə bilər.

Allah bu mədəniyyətin mülki təsisatlarının təminatını azaltdıqca özəl sektor boşluğu doldurmaq üçün meydana çıxmalıdır. İnsanların ehtiyaclarını qarşılamaq üçün gəliri çatmayan ictimai sektor dağılacaq. Şəhər, ştat və federal səviyyələrdə qıtlıq artır. İctimai sektorun kömək üçün özəl sektora üz tutması labüddür. Bu isə Allahın xalqı üçün milləti düzəltmək fürsəti olacaq. Allahın xalqı bunu xidmətçilik və təcrübədə öyrəndiyimiz Müqəddəs Yazılara əsaslanan idarəçilik həqiqətləri vasitəsilə edəcək. Bu, əldən buraxmağa cürət etməyəcəyimiz bir fürsət olacaq; Allahın köməyi ilə biz onu əldən buraxmayacağıq. Atanın Padşahlıq işinin genişlənməsi məsələsi həll olunur!

Şərait yaranarkən biz hazır olmalıyıq. Məsihçi işgüzarlar, siz Allahın bu ehtiyac üçün təminatının düz mərkəzindəsiniz.

Lakin şəxsi həyatımızda işlətməyi öyrənmədiyimiz şeyləri qaydaya sala bilmərik. Öz təsir dairəmizdə Allahın Kəlamını tətbiq etməyi öyrənməliyik və buna özümüzü həsr etməliyik. Onda oyanış çağırışı bizi qorxutmaq əvəzinə, sevindirəcək.

# Müəllif haqqında

Keçmişdə iş adamı və sahibkar olmuş Dennis müasir həyatın hər bir sahəsinə məsihçiliyin münasibliyini nümayiş etdirməyə həsr edilmiş *GoStrategic* idarəçilik təşkilatının banisidir. O bu üç kitabın da müəllifidir: "Xalqların aqibəti barədə" (2012), "İnsanların düşüncələri uğrunda döyüşdə qalib gəlmək" (2005) və "İmperatorun paltarları yoxdur" (2002). Onun habelə çoxsaylı audio və video təqdimatları var. Dennis və yoldaşı Cen Kaliforniyadakı Santa Roza şəhərində yaşayırlar. Onların üç yetkin övladı və on iki nəvəsi var.

*GoStrategic* nəzdində olan **Biznes idarəçiliyi məktəbi, Strateji həyat tədrisi** və **Allahın Padşahlığı vətəndaşlığı məktəbi** məsihçiləri internetdə canlı rejimdə öyrədirlər; onlara köməkçilər və interaktiv qrup dəstək olur. Bundan əlavə, *GoStrategic* təhsil vəsaitləri yaradır, görüşlər təşkil edir, şəbəkələr qurur və məsləhətlər verir. Santa Rozadakı baş qərargahlarından başqa, onların Meksikada, Mərkəzi və Cənubi Amerikada, Avropada, Asiyada, Avstraliyada və Yeni Zelandiyada filialları və məktəbləri mövcuddur.

*GoStrategic* imanlıları yaşadıqları, işlədikləri və xidmət etdikləri icmalarda rəhbər olmaq üçün hazırlayır. Onların ixtisaslaşması ruhani həqiqətlə gerçək dünyadakı problemlərin həllində bu həqiqətlərin tətbiqi arasında olan boşluğu doldurmaqdan ibarətdir. Oxşar düşüncəyə malik fərdlərə təhsil vermə, modelləşdirmə və əlaqələndirmə sahəsində otuz ildən çox təcrübəyə malikdirlər. Müqəddəs Kitabdakı prinsipləri ən mürəkkəb, çətin vəziyyətlərə tətbiq edən məsihçilərin bəhrəsinin siftəsini onlar görüblər.

**www.gogtrategic.org**

# Biznes idarəçiliyi məktəbi (BİM)

*GoStrategic* **Biznes idarəçiliyi məktəbi** 1996-cı ildə iş adamlarına Allaha məqbul yolla iş qurmağı öyrətmək missiyası tərəfindən təşkil edilib. Bu məktəb iki illik onlayn kursdur, dərslər kiçik qruplarda keçirilir; Müqəddəs Kitabın iqtisadi prinsiplərinə və biznes təcrübəsinə, eləcə də dərin biliyin səmərəli xidmətə gətirib çıxarması prinsipinə əsaslanır. BİM Müqəddəs Kitab həqiqətinin bazarın düşüncə və təcrübəsinə təsirini, eləcə də iştirakçıların həyatlarında və işlərində kökdən dəyişikliyi necə yaratdığını aydın göstərir.

Yazıları dərk etməkdə kömək edirik ki, siz ümumbəşəri quruculuq nümunələrini görəsiniz, eləcə də həyatı dəyişən və kapital yaradan bu həqiqətləri öz həyatınızda və rəhbərlik etdiyiniz, yaxud təsir göstərdiyiniz adamların həyatlarında tətbiq edəsiniz.

## "BİZNES İDARƏÇİLİYİ MƏKTƏBİ"NİN NƏTİCƏLƏRİ:

**Gələcəyə baxış:** Müqəddəs Kitab həqiqətinin bazarın düşüncə və təcrübəsinə təsirini aydın göstərir.

**Əsaslar:** Bazarda Allahın Padşahlığını nümayiş etdirmək yolunun əsasında olan ideyalar.

**Əlaqə:** İştirakçılara daha geniş kontekstdə digər resurslarla əlaqə yaratmaqda kömək edən proses. Bunun məqsədi dəyişikliyə şərait yaratmaq, eləcə də şəxsi həyatda, ailədə, iş fəaliyyətində və cəmiyyətdə kökdən dəyişməni dəstəkləməkdir.

**Yardım:** Təlim almış yardımçılar iştirakçıları ruhlandıraraq və onlara kömək edərək istiqamət verirlər ki, onlar öz fikirlərini, münasibətlərini və təcrübələrini bu kursda təqdim edilmiş prinsiplər nöqteyi-nəzərindən yoxlasınlar.

BİM hal-hazırda ABŞ-da, Meksikada, Kanadada, Avropada, Yeni Zelandiyada, Asiyada və Mərkəzi Amerikada fəaliyyət göstərir.

**Daha çox məlumat əldə etmək üçün, zəhmət olmasa, bizim saytımızı ziyarət edin:**

**www.gostrategic.org/schools**

# *GoStrategic* haqqında

İndi prezident vəzifəsində çalışan Dennis Pikok tərəfindən 1979-cu ildə əsası qoyulmuş *GoStrategic* xalqları şagird edib dünyanı kökdən dəyişən, eləcə də fərqli mədəniyyət dairələrindən olan rəhbərləri tədris və təmin etməyə həsr olunan bir peyğəmbərlik xidmətidir. **Biznes idarəçiliyi məktəbi** (**www.schoolofbusinessleadership.com**), **Strateji həyat tədrisi** (**www.schoolofstrategicliving.com**) ve **Allahın Padşahlığı vətəndaşlığı məktəbi** (**www.schoolofkingdomcitizenship.com**) məktəbləri yardımçıların köməyi və qrup ilə canlı interaktiv münasibət vasitəsilə məsihçilərə onlayn təhsil verirlər. Bundan savayı, *GoStrategic* təhsil vəsaitlərini yaradır, tədbirlər və şəbəkələr təşkil edir və məsləhətlər verir. Santa Rozadakı baş qərargahlarından başqa, onların Meksikada, Mərkəzi və Cənubi Amerikada, Avropada, Asiyada, Avstraliyada və Yeni Zelandiyada filialları və məktəbləri mövcuddur.

*GoStrategic* imanlıları yaşadıqları, işlədikləri və xidmət etdikləri icmalarda rəhbər olmaq üçün hazırlayır. İxtisasımız — ruhani həqiqət ilə gerçək dünyadakı problemlərin həllində bu həqiqətlərin tətbiqi arasında olan boşluğu doldurmaqdan ibarətdir. Oxşar düşüncəyə malik fərdlərə təhsil vermə, modelləşdirmə və əlaqələndirmə sahəsində otuz ildən çox təcrübəyə malikik. Müqəddəs Kitabdakı prinsipləri ən mürəkkəb çətin vəziyyətlərə tətbiq edən məsihçilərin bəhrəsinin siftəsini görmüşük. Biz səmimi inanırıq ki, göstərdiyimiz xidmətlər nəticəsində imanlılar dünyada yenidənqurma, düzəltmə və bərpa işinə başlayacaq və minlərlə cəmiyyət kökdən dəyişəcək. Daha çox öyrənmək üçün, zəhmət olmasa, bizim saytımızı ziyarət edin:

**www.gostrategic.org**
**www.facebook.com/strategicchristianservices**
**www.instagram.com/gostrategic1979**
**E-poçt: info@gostrategic.org**